

Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

26 dekabr 2019-cu il
Cümə axşamı

№ 50 (3465)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 18-də Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı dekabrın 18-də Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 19-da ölkəmizin ədəbi ictimaiyyətinin nümayəndələrini Azərbaycan Yazıçılar Birliyinin 85 illik yubileyi ilə əlaqədar təbrik edib.***

***Dekabrın 23-də Azərbaycan Prezidenti İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib.***

***Dekabrın 24-də dövlətimizin başçısı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 24-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 24-də Bakı Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsinin açılışında iştirak ediblər, əsasən tamamlanmış Park Kvartalı ilə tanış olublar və buradakı parkın abadlaşdırılmasına start veriblər.***

**Dekabrın 24-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.**

**Dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**

**Dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**

# PREZİDENT İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 20-də Sankt-Peterburq şəhərinə səfərə gəlib.

Sankt-Peterburq şəhərinin Pulkovo-1 hava limanında dövlətimizin başçısı İlham Əliyevi Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko, Sankt-Peterburq şəhəri hökumətinin üzvü, Xarici əlaqələr komitəsinin sədri Yevgeni Qriqoriyev, Leninqrad vilayətinin Xarici əlaqələr komitəsinin sədr müavini İnna Biqotskaya və digər rəsmi şəxslər qarşılayıblar.

Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində fəaliyyət göstərən diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşüb.

Dekabrın 20-də Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Sonra Prezident İlham Əliyev görüş iştirakçıları ilə birgə "1939-cu il II Dünya müharibəsinin başlanması" mövzusunda tarixi-sənədli sərgi ilə tanış olub.

Dekabrın 20-də MDB dövlət başçılarının qeyri-rəsmi görüşünün iştirakçılarının şərəfinə ziyafət verilib.

Prezident İlham Əliyev ziyafətdə iştirak edib.

Dekabrın 20-də Prezident İlham Əliyevin Rusiya Federasiyasına səfəri başa çatıb.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERİB

Dekabrın 23-də müasir müstəqil Azərbaycanın tarixində növbəti bələdiyyə seçkiləri keçirilib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs vermək üçün Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsinə gəliblər.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçib və sonra bülleteni qutuya salıb.

Sonra birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva səs veriblər.

# DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

*Hörmətli həmkarlar!*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi daxili və xarici siyasət kursunun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində yola saldığımız 2019-cu il ölkə həyatının bütün sahələrində dinamik inkişaf, köklü islahatlar, xalqın rifah halının yüksəlməsi ilə səciyyəvidir.*



*Tərəqqi və quruculuq işləri üçün əsas şərt olan ictimai-siyasi sabitlik daha da möhkəmləndirilmiş, xalqımız əmin-amanlıq şəraitində yaşayıb yaratmışdır.*

*Digər hüquq mühafizə orqanları ilə sıx qarşılıqlı əlaqədə asayişin və daxili təhlükəsizliyin qorunması ilə bağlı mühüm funksiyalar layiqincə həyata keçirilmiş, xidməti vəzifələrin icrasında xüsusilə fərqlənən bir qrup əməkdaş və hərbi qulluqçu dövlət mükafatlarına layiq görülmüşdür.*

*Bu gün möhkəm nizam-intizama, yüksək peşəkarlığa, müasir maddi-texniki imkanlara malik olan daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti böyük əzm və qətiyyətlə cinayətkarlığa qarşı mübarizə aparır, vətənpərvərliyi və anda sadiqliyi ilə seçilir.*

*Əziz həmkarlar!*

*Əminəm ki, vətəndaşlarımızın qanuni mənafelərinin, insan hüquq və azadlıqlarının müdafiəsi kimi məsul vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcək, möhtərəm Prezidentin, Ali Baş Komandanın yüksək etimadını doğruldacaqsınız.*

*Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bütün şəxsi heyəti, həmçinin hörmətli veteranlarımızı, vəzifə borcunu yerinə yetirərkən şəhid və həlak olmuş əməkdaşların və hərbi qulluqçuların ailə üzvlərini səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda yeni-yeni nailiyyətlər arzulayıram.*

*Bayramınız mübarək!*

***Vilayət Eyvazov,***
***Azərbaycan Respublikasının Daxili İşlər naziri,***
***general-polkovnik***

***Dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirə keçirilib.***

***Dövlətimizin başçısı müşavirədə nitq söyləyib.***

# QAÇQIN SOYDAŞLARIMIZA BAYRAM SOVQATI VERİLDİ

Hər il olduğu kimi, bu il də Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi günü ərəfəsində - dekabrın 24-də Daxili İşlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyevin başçılığı ilə Nazirliyin nümayəndələri Sabirabadın Yeni Şəhriyar və Goranboyun Aşağı Ağcakənd qəsəbələrində müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşüblər.

Nazir müavini qarşıdan gələn əlamətdar günlər münasibətilə



respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun təbriklərini və xoş arzularını doğma yurd yerlərindən didərgin düşmüş həmvətənlərimizə çatdıraraq bu kateqoriyadan olan soydaşlarımızla sıx təmasların qurulmasının, onların qayğı və problemlərinə hər zaman diqqətlə yanaşılmasının əsasının hələ ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu xatırladıb.

Ümummilli liderimizin daxili və xarici siyasətini möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayan nazir müavini ölkə başçımızın qaçqın və məcburi köçkünlərin problemlərinə həssaslıqla yanaşmağı bütün icra qurumlarının rəhbərlərindən tələb etdiyini diqqətə çatdırıb, sosial müdafiəyə ehtiyacı olan bu insanların həyat şəraitinin daha da yaxşılaşdırılması üçün görülən tədbirlərdən, dövlət və ordu quruculuğu, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini sahələrində əldə olunmuş uğurlardan danışıb.

Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov və Xocalı Rayon İcra Hakimiyyəti başçısı Şahmar Usubov qaçqın və məcburi köçkünlərə göstərilən dövlət qayğısından söz açıb, bu yöndə adı çəkilən rayonlarda məskunlaşmış həmvətənlərimizin ehtiyaclarının ödənilməsinə və problemlərinin həllinə hər zaman xüsusi diqqət və həssaslıqla yanaşdığına görə dövlətimizin başçısına və Nazirliyin rəhbərliyinə təşəkkür ediblər.

Qaçqın və məcburi köçkünlər adından çıxış edənlər bu günün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin doğum gününə təsadüf etdiyini qeyd edərək, dövlət başçısına bu münasibətlə təbriklərini ünvanlayıb, onun apardığı siyasət nəticəsində doğma torpaqlarına qayıdacaqlarına əminliklərini bildirib, göstərilən daimi diqqət və qayğıya görə minnətdarlıq ediblər.



Respublikanın daxili işlər orqanları əməkdaşlarının könüllülük prinsipi əsasında topladıqları 80 min manatlıq vəsait Sabirabadın Yeni Şəhriyar və Goranboyun Aşağı Ağcakənd qəsəbələrində məskunlaşmış soydaşlarımıza təqdim olunub.

# QƏLƏBƏLƏRLƏ, ZƏFƏRLƏRLƏ ZƏNGİN BİR İL

**Ölkə idmançılarına göstərilən yüksək diqqət və qayğıdan ruhlanaraq dövlətimizin idman şərəfini beynəlxalq aləmdə layiqincə qoruyanlar arasında daxili işlər orqanlarının idmançı əməkdaşları və DİN İdman Cəmiyyətinin yetirmələri də var. Yola salmaqda olduğumuz ildə əldə edilən uğurlu nəticələri DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova ilə izlədik:**

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən ali hakimiyyətə qayıdışından sonra bütün sahələrə artan diqqət və qayğıdan idmana da böyük pay düşür. Ölkə gənclərinə artan qayğı onlara cəmiyyətdə özünütəsdiq və potensiallarını reallaşdırmaq imkanlarını daha da genişləndirir. Azərbaycan gəncliyinin artan uğurları arasında onların dünyanın idman meydanlarında qazandığı daha əzəmətli, daha möhtəşəm qələbələr idman tariximizin şanlı səhifələrinə çevrilib. Yola salacağımız il böyük



"Tokio-2020" Yay Olimpiya Oyunlarına lisenziya əldə edib. DİN-in İdman Cəmiyyətinin inspektoru, polis baş leytenantı Natiq Eminov, Suraxanı RMŞ-nin polis nəfəri, polis serjantı Şənlik Talıbov, Dəmiryolu NPİ-nin sərnişin qatarlarının müşayiəti üzrə PPXB-nin polis nəfəri, polis serjantı Əli Həsənli, ƏÇPA-nın XTT-nin manqa komandiri, polis baş serjantı Orxan Şükürov, Bakı şəhər BPİ-yə bilavasitə tabe olan Bakı Metropolitenində polis şöbəsinin polis nəfəri, polis serjantı Elvin Qurbanov əlbəyaxa döyüşün müxtəlif növləri üzrə dünya və qitə çempionatlarında, dünya kuboku yarışlarında yüksək nəticələr əldə ediblər.

İsmayıllı RPŞ-nin növbətçi hissəsinin sürücüsü, polis baş serjantı Kamil Qafarov, BMİ-nin "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin mühafizəsi üzrə MŞ-nin polis nəfəri, polis serjantı Roman Əhmədov, Səba-



hadisələrlə yadda qaldı. Sevindirici haldır ki, qaliblərimiz sırasında DİN İdman Cəmiyyətinin yetirmələri də ciddi uğurlar əldə etdilər.

DİN-in DQ-nin idman komandasının məşqçi-müəllimi, baş leytenant Ruslan Lunyov güllə atıcılığı üzrə Polis Akademiyasının fiziki hazırlıq kafedrasının müəllimi, polis leytenantı ... [sic: column order] 

lis baş leytenantı Kamran Məmmədov yunan-Roma güləşi, ƏÇPA-nın XTT-nin polis nəfəri, polis serjantı Ayxan Mamayev Karate Şotokan üzrə beynəlxalq turnirlərdə III yerə layiq görülüblər.

Bundan əlavə, NBPİ-nin CAİ-nin baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı Eduard Məmmədov, DQBİ-nin İdman komandasının məşqçi-müəllimi, baş leytenant İlqar Nəcəfli, Xəzər RPİ-nin PPXB-nin taqım komandiri, polis mayoru İlkin Səfərov, İdman Cəmiyyətinin inspektoru, polis baş leytenantı Elşən İbişov, Polis Akademiyasının fiziki hazırlıq kafedrasının müəllimi, polis leyte-

il RMİ-nin polis nəfəri, polis serjantı Razim Hüseynov pauerliftinq üzrə mötəbər yarışlarda ən güclülər sırasında yer alıblar.

Onlarla idmançı əməkdaş qitə və beynəlxalq miqyaslı yarışlarda iştirak edib, müxtəlif əyarlı medallar qazanıblar. DİN İdman Cəmiyyətinin yeniyetmə və gənc təmsilçiləri də bir sıra ünlü turnirlərdə ümüdverici qələbələr əldə ediblər. Ümüd edirik ki, yetirmələrimiz bundan sonra da ölkə idmanının şöhrətini uca tutacaq və yeni-yeni qələbə raportları ilə həmvətənlərimizi sevindirəcəklər.

***Ruslan Vəliyev,***
***polis leytenantı***

# POLİS MƏKTƏBLİLƏRİN QONAĞI OLDU

**Yevlax Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə S. Vurğun adına 5 saylı tam orta məktəbdə "Gənclər narkomaniyaya yox deyir", "Erkən nikah və onun fəsadları" və "Dini radikalizmə qarşı birgə mübarizə" mövzularında görüş keçirilib.**

Çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Elnur Mehdiyev narkomaniyanın təhlükə mənbəyi olduğunu və bu bəlaya qarşı ölkəmizdə aparılan mübarizədən, qəbul olunan dövlət proqramından danışaraq son illərdə bu istiqamətdə aparılan genişmiqyaslı maarifləndirici tədbirlərin əhəmiyyətindən bəhs edib. Narkomaniyanın cəmiyyətdə və insanın şəxsi həyatında törədə biləcəyi neqativ hallardan danışan rəis bu bəla ilə mübarizə yolları haqqında geniş məlumat verib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yevlax rayon şöbəsinin rəisi, polkovnik-leytenant Elməddin Cəfərov ölkəmizdə dinin dövlətdən ayrı olduğu, hər bir şəxsin dini inancına hörmətlə yanaşıldığı barədə məktəblilərə ətraflı məlumat verib.

Təhsil müəssisəsinin direktoru Zərxanım Əhmədova erkən nikahın fəsadları barəsində gəncləri məlumatlandırıb. Əvvəllər belə hallara daha çox rast gəlindiyi, ancaq indi cəmiyyətin müasirləşdiyi və qanunla nikah yaşının minimum 18 olduğu diqqətə çatdırılıb.

Sonda isə narkomaniyanın cəmiyyətə zərərlərini əks etdirən mövzuda şagirdlərin əl işlərindən ibarət sərgi və müxtəlif bədii kompozisiyalar nümayiş olunub.

**Xocavənd Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Muğanlı kənd tam orta məktəbində "Gənclər narkomaniyaya yox deyir", "Erkən nikah və onun fəsadları" və "Dini radikalizmə qarşı birgə mübarizə" mövzularında tədbir keçirilib.**

Tədbirdə çıxış edən RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Xəyyam Mirhüseynov müasir dövrümüzün bəlası olan narkomaniyanın insanlara vurduğu mənəvi və maddi zərərlərdən söz açıb. Eləcə də "ağ ölümün" qurbanına çevrilənlərin sağlam həyata qayıtmasının çox çətin olduğunu vurğulayıb. Narkomaniyanın tək ölkəmiz üçün deyil, bütün dünya üçün təhlükə mənbəyi olduğunu bildirib. Rəis narkomaniyaya qarşı aparılan mübarizədən, qəbul olunan dövlət proqramından danışaraq son illərdə bu istiqamətdə həyata keçirilən genişmiqyaslı maarifləndirici tədbirlərin əhəmiyyətindən bəhs edib.

Sonra tədbirdə çıxış edənlər erkən nikahın fəsadları barəsində gənclərə tövsiyələr veriblər.

Dini radikalizmdən söz açan qonaqlar dövlətimizdə dinin dövlətdən ayrı olduğu və ölkəmizdə yaşayan hər bir şəxsin dini inancına hörmətlə yanaşıldığı, ancaq bu azadlıqdan sui-istifadə edənlərin olduğu barəsində məktəblilərə ətraflı məlumat veriblər. Ölkəmizdəki dini tolerantlığın dünyaya nümunə olduğu bildirilib. Məhz buna görə də dövrümüzdə həssas olan bu mövzular barəsində şagirdləri diqqətli və məlumatlı olmağa çağırıblar.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

# DİN-İN POLİS AKADEMİYASI 2019-cu İL ÜÇÜN DOKTORANTURAYA VƏ DİSSERTANTURAYA QƏBUL ELAN EDİR

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2019-cu il tarixli, 737s nömrəli sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2019-cu il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul Planına əsasən 2019-cu il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir.

(magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı iki il elmi və elmi-pedaqoji iş stajına malik elmi və elmi-pedaqoji kadrlar sənəd təqdim edə bilərlər.

Dissertantlıq yolu ilə təhsil müddətini başa vuran şəxslər eyni ixtisas üzrə təkrar dissertant ola bilməzlər.

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | **doktoranturaya** qəbul planı | | **dissertanturaya** qəbul planı | |
| | | **cəmi** | **o cümlədən:** **büdcə hesabına** **qiyabi** | **cəmi** | **o cümlədən:** **büdcə hesabına** |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | 3 | 3 | 4 | 4 |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | 2 | 2 | 2 | 2 |
| | **Cəmi:** | 5 | | 6 | |

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya sənədlər 10-28 dekabr 2019-cu il tarixlərində həftənin I-V günlərində saat 09:00-dan 18:00-dək, şənbə günü isə saat 09:00-dan 15:00-dək (bazar və bayram günləri istisna olmaqla) qəbul ediləcək.

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar.

Fəlsəfədən məqbul alan şəxslər ixtisas imtahanına buraxılırlar.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər DİN-in Polis Akademiyasına təqdim olunmalıdır:

- DİN-in Polis Akademiyasının rəisinin adına ərizə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən

Doktoranturada tam təhsil müddətini başa vurmuş şəxslər eyni ixtisas üzrə dissertantlıq yolu ilə təhsil ala bilməzlər.

Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya qəbulla bağlı aşağıdakı sənədlər DİN-in Polis Akademiyasına təqdim olunmalıdır:

- ərizə (DİN-in Polis Akademiyasının rəisinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Əlavə məlumat üçün DİN-in Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinə müraciət etmək olar.

**Əlaqə telefonları: (+994 12) 454-13-85, 454-34-57.**

E-mail: **ehg69@mail.ru**

Qeyd: Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd verən iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər.

Xarici dildən imtahanlar proqramı müəyyən olunmuş proqram əsasında Dövlət İmtahan Mərkəzi tərəfindən 10-15 yanvar 2020-ci il tarixlərində keçirilməsi planlaşdırılır.

***DİN-in Polis Akademiyası***




Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən yüksək təsiredici xassəyə malik psixotrop tərkibli dərmanların qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxslərə qarşı növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib.

Belə ki, Baş İdarəyə Mingəçevir şəhərində yerləşən "Sübhan" aptekində psixotrop tərkibli dərmanların satılması barədə əməliyyat məlumatı daxil olub. Polis əməkdaşlarının keçirdikləri tədbir nəticəsində həmin aptek nəzarətə götürülüb və qeyd edilən obyektdə psixotrop tərkibli dərmanların satışının həyata keçirildiyi təsdiqini tapıb. Əməliyyat zamanı aptekdə satıcı işləyən Mingəçevir şəhər sakini Rəşad Abduləzimov və aptekin sahibi Ağdam sakini Samir Məmmədov saxlanılıblar.

Baxış zamanı aptekdə "Fenobarbital", "Relanium", "Diazepeks", "Actopentin", "Sirentin" və sair dərman preparatları aşkar olunaraq maddi sübut kimi götürülüb. Aptekin satıcısı Rəşad Abduləzimov ifadəsində aptekin sahibi Samir Məmmədovun tapşırığı ilə psixotrop dərman preparatlarının satışını apardığını və gündəlik hesabatları ona təqdim etdiyini bildirib.

Aptekin sahibi Samir Məmmədov da qanunla tələb olunan xüsusi lisenziya olmadan psixotrop dərman preparatlarının aptekdə onun tapşırığı ilə satışının aparıldığını ifadəsində təsdiq edib.

*****

Yetkinlik yaşına çatmayanlara alkoqollu içkilərin və tütün məmulatlarının satışının qarşısının alınması istiqamətində polis orqanları tərəfindən mütəmadi olaraq tədbirlər keçirilir.

Dekabrın 17-də və 20-də Nazirliyin Baş İctimai Təhlükəsizlik İdarəsinin, Nizami və Nərimanov Rayon Polis idarələrinin əməkdaşları həmin rayonların ərazisində tədbirlər keçiriblər.

Reydlər nəticəsində 4 mağazada satıcıların yetkinlik yaşına çatmayanlara tütün məmulatları satmaları faktları aşkarlanıb.

Həmin mağazaların satıcıları – R.Məmmədov, Ə.Qasımov, M.Cəfərov və M.Salmanov barələrində İnzibati Xətalar Məcəlləsinin 455.2-ci maddəsinə əsasən (Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə) protokollar tərtib olunub.

*****

Sabunçu rayonunda velosipedçini vuraraq hadisə yerindən yayınan avtobus sürücüsü saxlanılıb.

Cari il dekabr ayının 20-də saat 13:00 radələrində Sabunçu rayonu Maştağa qəsəbəsi ərazisində müəyyən edilməmiş avtomobillə Sabunçu qəsəbə sakini 1973-cü il təvəllüdlü Roman Nəsibov velosipedlə hərəkət edən zaman naməlum avtomobil tərəfindən vurulub. Həmin şəxs aldığı xəsarətlər nəticəsində hadisə yerində dünyasını dəyişib. Sürücü isə piyadaya heç bir yardım göstərməyərək hadisə yerindən yayınıb. Sabunçu Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yol-nəqliyyat hadisəsini törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən 131 saylı marşrut xətti ilə hərəkət edən "Daewo" markalı avtobusun sürücüsü Xanağa Novruzov saxlanılaraq istintaqa təqdim edilib. Qeyd edək ki, avtobusun velosipedçini vurması anı müşahidə kameraları vasitəsilə də lentə alınıb.

Qeyd olunan faktla bağlı Sabunçu RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 263.1 (Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda) və 264-cü (Yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

*****

Astara Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri növbəti uğurlu əməliyyat tədbiri nəticəsində 900 qrama yaxın narkotik vasitə və psixatrop maddə aşkarlanaraq qanunsuz dövriyyədən çıxarılıb.

RPŞ-nin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon sakini əvvəllər məhkum olunmuş Teymur Baxşiyev narkotik vasitə olan 150 qram heroini satarkən cinayət başında saxlanılıb. Onun üzərinə keçirilən baxış zamanı 60 qram psixatrop maddə olan metamfetamin aşkarlanaraq götürülüb. Əməliyyat tədbirlərinin davamı olaraq T.Baxşiyevin yaşadığı evə baxış keçirilərkən oradan 380 qram heroin və 280 qram psixatrop maddə metamfetamin və bir ədəd elektron tərəzi aşkar edilərək götürülüb.

Eyni zamanda T.Baxşiyevin borc pul müqabilində Astara rayon Ərçivan qəsəbə sakini İ.Qulamovun "Mercedes" markalı avtomobilini girov olması müəyyən edilib və həmin avtomobil saxlanılan şəxsin yaşadığı evin həyətindən aşkarlanaraq götürülüb.





# HEÇ KİMİN ƏMƏYİ KÖLGƏDƏ QALMIR

Daxili işlər orqanları əməkdaşları üçün onlarla, yüzlərlə yaddaş kitabçaları, xidməti istifadə üçün Qanunlar, təlimatlar, tövsiyələr çap olunub istifadəyə verilir. Yüksək poliqrafiq keyfiyyət, zövqlü tərtibatı olan bu çap məhsullarını görəndə, bəlkə də, əksəriyyət elə bilir ki, bunlar xaricdə dərc olunub. Amma bütün bu kitablar, jurnallar, açıqlamalar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə bilavasitə tabe olan Mətbəəsində çalışanların əməyinin bəhrəsidir.

Elə “Mübariz keşikdə”, “Polis”, “Polis Akademiyası”, “Əsgər” qəzetləri və “Asayişin keşiyində” jurnalı da burada çap olunur.

Burada sənətinin vurğunu olan mahir bilicilər, cəfakeşlər çalışır. Mətbəə son model poliqrafiq texnika ilə təmin olunub. Onlara texniki qulluq göstərilir, daim işlək vəziyyətdə olmasına nəzarət edilir.

Mətbəənin rəisi, **polis polkovniki Zaur Hüseynov** deyir ki, verilən tapşırıqların yerinə yetirilməsi məqsədilə növbəli xidmət də olur. Çap məhsullarının vaxtında təhvil verilməsinə həmişə hazırıq.

***T.Əlizadə,***
***polis kapitanı***

# YADDAŞLARDAN XATİRƏSİ BOYLANIR



**Rəşid Məmmədov 1944-cü ildə Göyçay rayonunda doğulub. 1960-ci ildə orta məktəbi bitirərək Rusiya Federasiyasında hərbi xidmətə yollanıb. Sonradan taleyi onu daxili işlər orqanlarına gətirib. Belə ki, 1962-ci ildə R.Məmmədov Orta Milis Məktəbinə daxil olub. Tələbəlik illərində biliyi, bacarığı ilə yoldaşları arasında sayılıb-seçilib. Təhsilini başa vurduqdan sonra Nəqliyyatda Polis İdarəsində polis nəfəri daha sonra isə sahə rəisi vəzifəsində çalışıb.**

1966-cı ildə Vətənə qayıdan R.Məmmədov BŞBPİ-də və daha sonra BCAİ-də xidmətini davam etdirib. Polis polkovniki R.Məmmədov sonradan Cəbrayıl, Ağdam, Lənkəran, Qəbələ Rayon Polis Şöbələrinin rəisi vəzifələrində çalışıb. 1998-ci ildən DİN BCAİ-də Şöbə rəisi kimi xidmətini davam etdirib. 2001-ci ilin dekabırında xidməti vəzifəsini yerinə yetirərkən avtomobil qəzasında həyatını itirib.

# ƏCNƏBİ DİL BİLMƏK ÜSTÜNLÜYÜMÜZDÜR

**Rayondakı şirkətlərdən birində çalışan inşaat üzrə əcnəbi mütəxəssisin xəsarət alması ilə bağlı Mərkəzi Xəstəxanadan Kürdəmir Rayon Polis Şöbəsinə məlumat daxil olan kimi, məsələni araşdırmaq üçün İctimai Təhlükəsizlik Bölməsinin inspektoru, polis baş leytenantı Asif Əhmədov onun yanına yollanıb.**



Marsel Birniştin həmvətənlərinin də orada olduğunu görüb, səlis alman dilində salamlaşıb, xəsarət alana tezliklə sağalmasını arzulayıb. Polis əməkdaşının bu bacarığı onlarda xoş təəssürat yaradıb. Hadisə haqqında müfəssəl məlumat veriblər. Alman dilində toplanmış materialların tərcüməsi ilə birgə məruzə olunması rəhbərliyin də çox xoşuna gəlib.

Həmsöhbətim sözünə alman mütəfəkkiri Hötenin sözləri ilə başladı: -"Kim özgə dili ilə tanış deyilsə, öz dili haqqında heç nə bilmir". Və Consonun fikri ilə davam etdi: "Dil fikrin libasıdır". "Hər bir insan xarici dillə maraqlanmalı, ən azından biri ilə tanış olmalı, öyrənməlidir",-dedi.

Söhbət əsnasında öyrəndim ki, o, İsmayıllının Mican kəndində doğulub. Orta təhsilini boya-başa çatdığı kənddə alıb. Şagird ikən alman şairi, dramaturq İohanVolfqanq Hötenin yaradıcılığı ilə tanış olub, onun dünyaca məşhur əsərlərini oxuduqdan sonra alman dilinə, ədəbiyyatına marağı artıb. Məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunub. Həmin fakültənin alman dili və ədəbiyyatı ixtisasını seçib. Elmə, biliyə həvəsi ilə fərqlənib. 2011-ci ildə keçirilən 26-cı respublika fənn olimpiadasında Alman dili üzrə qalib olub.

Təhsilini başa vurduqdan sonra Almaniya-Azərbaycan Xarici Ticarət palatasında işə düzəlib. Bir müddətdən sonra daxili işlər orqanlarında xidmət etmək arzusu ilə sıralarımıza üz tutub.

Amma elmi fəaliyyətdən də əl götürməyib. Bir qədər boş vaxt tapan kimi yaradıcılıqla məşğul olur. Alman atalar sözlərini, zərb-məsəllərini toplayıb, dilimizə çevirir, bu mövzuda elmi iş üzrə çalışır. A.Əhmədov deyir ki, Alman-Azərbaycan dilləri lüğəti mövcud olsa da, Azərbaycan-Alman dilində müfəssəl lüğət yoxdur.

Hazırda o, bu boşluğu aradan qaldırmaq üçün 65 min söz və söz birləşməsindən ibarət Azərbaycan-Alman lüğəti üzərində çalışır. İşin 90 faizini də başa çatdırıb, yaxın vaxtlarda bu kitabı tamamlayıb, nəşr etdirməyi düşünür.

Söhbətimizin yekununda qeyd etdi ki, çox dil bilmək üstünlüyümüzdür, həm də mədəniyyətdir. Sevindirici haldır ki, artıq daxili işlər orqanları əməkdaşlarının da əksəriyyəti iki və daha artıq dil bilir, ölkəmizə üz tutan əcnəbilərlə onların dillərində sərbəst danışa bilirlər.

***Toğrul Nəsirli,***
***polis baş leytenantı***

# POLİS YENƏ DƏ KÖMƏYƏ ÇATDI



Dekabrın 21-i axşam saatlarında Mingəçevir şəhəri ərazisində xidmət aparan Şəhər Polis Şöbəsinin Post-Patrul Xidmətinin əməkdaşları, polis serjantları Sadiq Kərimov və Məhəmməd Səmədov ətrafı müşahidə edən zaman bir nəfərin Kür çayına düşdüyünü müşahidə ediblər. Onlar dərhal çayın sahilinə enərək ətrafdakı vətəndaşlarla birgə həmin şəxsi sudan çıxarıblar. İlkin tibbi yardım göstərdikdən sonra onu xidməti avtomobilləri ilə Mingəçevir Şəhər Xəstəxanasına çatdırıblar. Həkimlərin müdaxiləsindən sonra həmin şəxsin səhhəti normallaşıb.

# HƏM İSTİRAHƏT EDİN, HƏM DƏ KİTAB OXUYUN



**Bundan sonra "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində dincələnlər kitab oxumaqdan da zövq alacaqlar. İstirahətçilərin təklifini nəzərə alan mərkəz rəhbərliyi müxtəlif ədəbiyyatlardan ibarət kitabxana yaradıb.** Kitabxanada ölkəmizin qədim tarixinə, milli-mənəvi dəyərlərimizə həsr olunmuş tarixi, elmi faktlara söykənən, eləcə də bədii ədəbiyyat toplanıb.

Oxucuların ixtiyarına verilən kitabxana həm də gözəl bir təşəbbüslə zənginləşəcək. İstirahətə gələnlər kitabxanaya kitab hədiyyə edə bilərlər. İnanırıq ki, polis əməkdaşları, onların ailə üzvləri, veteranlar və şəhərimizə gələn qonaqlar Xəzərdən, "Xəzri"dən və ordakı kitabxanadan məmnun qalacaqlar.

# MƏSULİYYƏTƏ CƏLB OLUNDULAR

**Quba Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində müxtəlif vaxtlarda oğurluq, soyğunçuluq və dələduzluq əməlləri törədərək vətəndaşlara maddi ziyan vuran şəxslər saxlanılıb.**

Belə ki, polis əməkdaşları tərəfindən keçirilmiş tədbirlərlə rayon ərazisində oğurluq etməkdə şübhəli bilinən Xaçmaz rayon sakini Kamran Heydərov saxlanılıb. Ətrafında aparılan tədbirlərlə məlum olub ki, K.Heydərov cari ilin dekabr ayının əvvəlində rayonun Barlı kəndi ərazisində Əvəz Məmmədova məxsus “Qaz-53” markalı yük avtomobilinin ehtiyat hissəsini oğurlayaraq Xaçmaz rayonu ərazisində metal qəbulu məntəqəsinə satıb.



Quba RPŞ-nin əməkdaşları tərəfindən rayon ərazisində taksi sürücüsünün etibarından istifadə edərək ona məxsus mobil telefonu soyğunçuluq yolu ilə ələ keçirən şəxs də saxlanılıb. Araşdırmalarla onun Xaçmaz rayon sakini Firdovsi Hacıqayıbov olduğu müəyyən edilib. Dindirilmə zamanı həmin şəxs sürücüyə qarşı soyğunçuluq etdiyini etiraf edərək, əldə etdiyi mobil telefonu Bakı şəhərində satdığını bildirib.

Həmçinin keçirilmiş tədbirlərlə vətəndaşları dələduzluq yolu ilə aldadaraq zərərçəkənlərin pullarını mənimsəyən Bakı şəhər sakini Tural Quluzadə də saxlanılıb. Məlum olub ki, o, elan saytlarında qiyməti 1000 manatdan artıq olan mobil telefonu dəyərindən daha ucuz qiymətə – 700 manata satılması barədə elan yerləşdirmişdir. Daha sonra isə zəng edən alıcı ilə satış qiyməti barədə razılığa gələn T.Quluzadə, alıcıdan telefonu almaq üçün beh göndərməsini tələb edərək ona bank hesab nömrəsi tədqim etmiş, beh göndərildikdən sonra isə T.Quluzadə zərərçəkmişin telefon zənglərinə cavab verməyərək əlaqəni kəsmişdir.

***Nizam Həmidov,***
***polis baş leytenantı***

# DƏSTƏ ÜZVLƏRİ YAXALANDI

**Zərdab rayonunda mağazalardan silsilə oğurluqlar edən dəstə üzvləri saxlanılıblar.** Belə ki, Rayon Polis Şöbəsinə 3 mağazanın sahibi onlara məxsus obyektlərdən naməlum şəxslər tərəfindən pul, danışıq kartları, tütün məmulatları, spirtli içkilər və ərzaq məhsullarının oğurlanması barədə məlumat veriblər. Şöbə əməkdaşları tərəfindən dərhal hadisə yerinə baxış keçirilib və zərərçəkənlərin izahatları alınıb. Həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində həmin hadisələrin rayonun Əlibəyli kənd sakinləri Yalçın Qasımzadə, Elmaz Hüseynov və Ələddin İsazadə tərəfindən törədildiyi müəyyən edilib.

# Dekabrın 18-dən 24-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 114 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 50 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 143, o cümlədən borclu şəxs qismində axtarışda olan 72 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 15 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 20 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 52 fakt müəyyən edilmişdir.

---

Nazir Vilayət Eyvazov və DİN Kollegiyasının üzvləri Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı ŞBPİ-nin rəhbərliyi və şəxsi heyəti Baş İdarə rəisi Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oktay Kərimov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Əbülfət Rzayev və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Mirəziz Mirəliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə ŞBPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİO-nun Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı ŞBPİ-nin İstintaq və Təhqiqat İdarəsinin rəisi Nazim İsmayılov və şəxsi heyəti iş yoldaşları

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Veteranlar Şurasının sədri Fərhad Süleymanov və Şuranın üzvləri Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ALLAH RƏHMƏT ELƏSİN!

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 19:00
Qiyməti 40 qəpik